**Azərbaycan Respublikasının nəqliyyat-yol kompleksinə daxil olan sahələr üzrə 2007-ci ilin yanvar- dekabr ayları ərzində sosial -iqtisadi inkişafın nəticələri haqqında**

# M Ə L U M A T

***Ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri***

2007-ci il ərzində ölkə iqtisadiyyatında 25228,1 milyon manatlıq ümumi daxili məhsul istehsal edilmiş, onun real həcmi əvvəlki ilin eyni dövrünə nisbətən 25,0 faiz və ya müqayisəli qiymətlərlə 4.7 milyard manat artmışdır.

Ümumi daxili məhsulun adambaşına düşən həcmi 23.6 faiz artaraq 2980,9 manata (3473,9 ABŞ dollarına ) bərabər olmuşdur.

Bu dövr ərzində sənayedə 14926,1 milyon manatlıq, yaxud ÜDM-in 59,2 faizi qədər, kənd təsərrüfatında 1564,5 milyon manatlıq (5,2 faiz), tikintidə 1802,4 milyon manatlıq (7,1 faiz), **nəqliyyatda 1054,8 milyon manatlıq (4,2 faiz)**, topdan və pərakəndə ticarət, avtomobillərin, məişət məmulatlarının və şəxsi istifadə əşyalarının təmiri üzrə xidmətlər sahələrində 1325,6 milyon manatlıq (5,2 faiz), rabitədə 470,6 milyon manatlıq (1,9 faiz), mehmanxana və restoranlarda xidmət sahələrində 159,0 milyon manatlıq (0,6 faiz) sosial və digər xidmətlər sahəlaində 2084,6 milyon manatlıq (8,3 faizi) əlavə dəyər yaranmışdır.

Ümumi daxili məhsulun 72.5 faizi iqtisadiyyatın istehsal, 20.2 faizi xidmət sahələrinin payına düşmüş, məhsula və idxala xalis vergilər isə ÜDM-in 7.3 faizini təşkil etmişdir.

2007-ci ildə sənaye müəssisələri, fərdi sahibkarlar və ev təsərrüfatları tərəfindən 20247,8 milyin manatlıq sənaye məhsulu istehsal edilmiş, onun 14.6 milyard manatlıq hissəsi və ya 72,2 faizi mədənçıxarma, 4,4 milyard mabnatlıq hissəsi və ya 21.8 faizi emal, 1,2 milyard manatlıq hissəsi və ya 6,0 faizi qaz və suyun istehsalı və bölüşdürülməsi bölmələrində yaradılmışdır.

*Ümumi Daxili Məhsulun yaranmasında Nəqliyyat xidmətlərinin həcmi 2006-cı ilə nisbətən 13,6 faiz artmışdır*

**2007-cı ilin yanvar –dekabr aylarında ümumi daxili məhsulun strukturu**




2007-ci il ərzində əvvəlki illə müqayisədə neft hasilatı 29,4 faiz, qaz hasilatı 81,6 faiz, digər faydalı qazıntıların isə 31,5 faiz artmışdır. Hasil olunmuş xam neftin həcmi 41,7 milyon ton, qazın hasilatı isə 11,0 milyard kub metr təşkil etmişdir. Rezin və plastik kütlə məmulatlarının istehsalında 42,9 faiz,maşın və avadanlıqların istehsalında 57,7 faiz, qida məhsulları istehsalında 10,1 faiz, oduncaqların emalı və ağacdan məmulatların istehsalında 6,6 faiz, **nəqliyyat vasitələri və avadanlıqlarının istehsalında 23,3 faiz,** tikinti materialları istehsalında 28,8 faiz, neft emalında 7,3 faiz səviyyəsində artım müşahidə olunmuşdur.

Sənaye istehsalının 93,8 faizi malların, 6,2 faizi xidmətlərin payına düşmüşdür. Sənayedə qeyri-dövlət müəssisələri tərəfindən 15,7 milyard manatlıq və ya ümumi istehsalın 77,4 faizi qədər, dövlət müəssisələri tərəfindən isə 4,5 milyard manatlıq və ya ümumi istehsalın 22,6 faizi səviyyəsində məhsul istehsal olunmuş və xidmətlər göstərilmişdir. Dövlət sektorunda məhsul istehsalının həcmi 1,6 faiz, qeyri-dövlət sektorunda isə 32,6 faiz artmışdır.

2007-ci il ərzində respublika üzrə Ümumi investisiya qoyuluşlarından 4174,6 milyon manatını (61,6 faizi) müəssisə və təşkilatların öz vəsaitləri, 249,0 milyon manatını (3,7 faizi) bank

kreditləri, 1718,2 milyon manatını (25,3 faizi) büdcə vəsaitləri, 390,9 milyon manatını (5,8 faizi) büdcədənkənar fondların vəsaitləri, 223,6 milyon manatını (3,3 faizi) əhalinin şəxsi vəsaitləri, 18,5 milyon manatını (0,3 faizi) digər vəsaitlər təşkil etmişdir.

**Maliyyə mənbələri üzrə əsas kapitala yönəldilmiş investisiyanın strukturu**

Ümumi həcmdə xüsusi çəkisi, faizlə




2007-ci iləərzində əsas kapitalayönəldilmişbütün investisiyanın 62,2 faizi (4212,5 milyon manat) sənaye sahələrinin inkişafına 3,3 faizi (223,7 milyon manat) kənd təsərrüfatına, 1,0 faizi (67,6 milyon manat) ticarətin xidmətinə, 9,3 faizi (631,4 milyon manat) nəqliyyata, 2,4 faizi (158,4 milyon manat) rabitəyə, 6,3 faizi (423,6 milyon manat) mənzil tikintisinə, 1,9 faizi (131,2 milyon manat) təhsilə, 1,3 faizi (85,9 milyon manat) səhiyyəyə, 12,3 faizi (159,7 milyon manat) digər sahələrə sərf edilmişdir.

2007-ci ilin yanvar-noyabr aylarında nəqliyyat sektorunda Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) neft ixrac kəməri ilə nəql edilmiş neftin və Bakı-Tbilisi-Ərzurum Cənubi Qafqaz boru kəməri xətti vasitəsi ilə nəql edilmiş qazın həcmi də nəzərə alınmaqla təsərrüfat subyektlərinin fəaliyyəti hesabına yük daşınması 14,9 faiz, yük dövriyyəsi isə 80,0 faiz artmışdır.

Nəqliyyat vasitələri ilə il ərzində 167,3 milyon ton yük daşınmış, onların 48,9 faizi avtomobil, 28,3 faizi boru kəməri (o cümlədən 17,0 faizi BTC neft kəməri, 0,5 faizi Cənubi Qafqaz qaz kəməri ilə), 16,7 faizi dəmir yolu, 6,1 faiz dəniz nəqliyyatı vasitəsilə həyata keçirilmişdir. .

**Nəqliyyat sektorunda yük daşınması üzrə**
**ayrı-ayrı nəqliyyat növlərinin xüsusi çəkisi**




Nəqliyyat sektorunda 2006-cı ildə yük daşıması üzrə 58,7 faizlik paya malik olmuş özəl bölmə 2007-ci ildə 67,9 faizədək yüksəlmişdir.

Nəqliyyat sektorunda sərnişin nəqliyyatı vasitələri ilə 1,1 milyard nəfər və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 8,0 faiz çox sərnişin daşınmış və bu sahədəki fəaliyyətin 83,9 faizi qeyri-dövlət bölməsinin payına düşmüşdür. Sərnişinlərin əksəriyyəti avtomobil və metro nəqliyyatı ilə daşınmışdır.

**Dəmir yolu nəqliyyatı** ilə 28,0 milyon ton və ya 2006-cı illə müqayisədə 7,3 faiz az yük daşınmışdır. Dəmir yolunda orta hesabla sutka ərzində yüklənmiş vaqonların sayı 11,4 faiz azalmış, boşaldılmış yük vaqonların sayı 3,7 faiz artmışdır. Vaqonların orta sutkalıq yüklənməsi dəmir yolunun Şimal istiqaməti üzrə 15,2 faiz, Qərb istiqaməti üzrə 16,8 faiz azalma ilə, Cənub istiqaməti üzrə isə 57,7 faiz çoxalma ilə müşahidə olunmuşdur. Dəmir yolunda yük dövriyyəsi ötən ilin müvafiq dövrü ilə müqayisədə 7,0 faiz azalmışdır.

**Dəniz nəqliyyatında** daşınmış yüklərin həcmi 24,7 faiz azalmış və 10,2 milyon ton təşkil etmişdir. Yüklərin 61,5 faizini neft yükləri, 38,5 faizini isə quru yüklər təşkil etmiş və demək olar ki, bütün daşımalar xarici əlaqələr üzrə həyata keçirilmişdir. Bu nəqliyyat növündə yük dövriyyəsi 25,2 faiz azalmış və 6,0 milyard ton-km təşkil etmişdir.

**Bakı Beynəlxalq Dəniz Ticarət Limanında** 5,5 milyon ton və ya əvvəlki ilin yanvar-dekabr ayı ilə müqayisədə 9,4 faiz az yükləmə-boşaltma işləri yerinə yetirilmişdir. İşlənmiş yüklərin 86,3 faizini təşkil edən beynəlxalq tranzit yüklərin həcmi 6,2 faiz, ixrac yüklərin həcmi 41,4 faiz azalmış, idxal yüklərin həcmi isə 7,2 faiz artmışdır. 01.01.2008-ci il vəziyyətinə limanda göndərilmək üçün 11,6 min ton idxal yüklərin qalığı olmuşdur. İl ərzində tam registr tutumu 2,6 milyon ton olan 465 gəmi limana daxil olmuş, onların 415-i boşaldılmış, 50-i isə yüklənmişdir.

**Avtomobil nəqliyyatı** ilə fiziki şəxslərin-fərdi sahibkarların fəaliyyəti də nəzərə alınmaqla 81,6 milyon ton yük, 964,5 milyon sərnişin daşınmış və 2006-cı illə müqayisədə müvafiq olaraq 9,7 faiz və 7,8 faiz artmışdır. Sərnişinlərin 96,8 faizi avtobus, 3,2 faizi isə minik taksilərinin xidmətlərindən istifadə etmişlər. Avtomobil nəqliyyatı ilə yük dövriyyəsində artım 11,1 faiz, sərnişin dövriyyəsində isə 9,4 faiz səviyyəsində olmuşdur. Son 10 il ərzində bu nəqliyyat növü ilə yük daşınmasının həcmi 4,3 dəfə , yük dövriyyəsinin həcmi isə 6,6 dəfə artmışdır. Nəqliyyat vasitələrinin sayı hər il olduğu kimi son ildə də kəskin şəkildə artmışdır. 2003-cü ildə 40,9 min, 2004-cü ildə 43,0 min, 2005-ci ildə 58,3 min, 2006-cı ildə 77,9 min ədəd çoxalmış avtomobil nəqliyyatı vasitələrinin artımı 2007-ci ildə rekord həddə 83,3 min ədədə çatmışdır. Nəticədə əhalinin hər 1000 nəfərinə düşən avtomobillərin sayı son 5 ildə 1,5 dəfə artaraq 90 ədəd olmuşdur. Avtomobillərin beşdə dörd hissəsini minik avtomobilləri, 14,3 faizini yük avtomobilləri, 3,6 faizini avtobuslar, qalan hissəsini isə xüsusi təyinatlı və digər avtomobillər təşkil etmişdir. 2007-ci il ərzində avtomobil yollarının və yol qurğularının tikintisinə də xüsusi diqqət ayrılmış, Bakı şəhərində 6 körpü və 6 piyada keçidi tikilərək istifadəyə verilmişdir.

**Metro nəqliyyatının** xidmətlərindən istifadə edən əhalinin sayı artmaqdadır. Ötən ildə metro nəqliyyatı ilə 175,7 milyon sərnişin və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 9,1 faiz çox sərnişin daşınmışdır.

**Hava nəqliyyatı** ilə il ərzində 1,5 milyon və ya əvvəlki illə müqayisədə 15,4 faiz çox sərnişin daşınmışdır. Bu nəqliyyat növü ilə daşınmış sərnişinlərin 94,0 faizi dövlət bölməsinə, 6,0 faizi isə özəl müəssisələrə məxsus hava gəmiləri ilə həyata keçirilmişdir. İl ərzində hava nəqliyyatı ilə 52,1 min ton yük daşınmış, onun 78,3 faizi qeyri-dövlət bölməsinin payına düşmüşdür.

Yük daşınmasının artımında əsas rol oynamış **magistral neft kəmərləri** ilə 40,0 milyon ton neft nəql edilmişdir. Nəqletmənin 71,0 faizi BTC icrac neft kəməri ilə həyata keçirilmiş və ötən il ərzində Bakıdan 28,4 milyon ton neft ötürülmüşdür. Ümumilikdə, magistral neft kəmərləri ilə nəql edilmiş yüklərin həcmi əvvəlki illə müqayisədə 2,0 dəfə artmışdır. Magistral neft kəmərləri ilə yük dövriyyəsinin həcmi isə 3,5 dəfə artmışdır.

Ötən ildə magistral neft kəmərləri ilə 7,4 milyon ton və ya əvvəlki illə müqayisədə 0,9 faiz az qaz nəql edilmişdir. Nəql edilmiş qazın 11,5 faizi yeni istismara verilmiş Bakı-Tbilisi-Ərzurum Cənubi Qafqaz boru kəməri xətti vasitəsilə həyata keçirilmiş və istismara verildiyi vaxtdan 1,5 milyard kub metr qaz ötürülmüşdür. Magistral qaz kəmərləri üzrə yük dövriyyəsinin həcmi isə 42,8 faiz artmışdır.

2007-ci ilin yanvar-noyabr aylarında **Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin** Azərbaycan hissəsində 42,6 milyon ton yük, 164,1 milyon nəfər sərnişin daşınmışdır. Yük daşınmasında dəmir yolu nəqliyyatı 57,3 faiz, avtomobil nəqliyyatı 30,0 faiz, dəniz nəqliyyatı 12,7

faiz paya malik olmuş, dəhlizdə bu nəqliyyat növləri ilə daşınmış yüklər ölkənin nəqliyyat sektorunda daşınmış bütün yüklərin 28,4 faizini təşkil etmişdir.

Daşımalardan 213,1 milyon manat və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 5,8 faiz çox gəlir əldə edilmiş və onun 62,4 faizi dəmir yolu, 18,4 faizi dəniz, 19,2 faizi avtomobil nəqliyyatının fəaliyyəti hesabına yaranmışdır.

. 2007-ci ilin yanvar-noyabr aylarında nəqliyyat müəssisələrində muzdla çalışan işçilərin sayı əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1367 nəfər artaraq 67,6 min nəfər təşkil etmişdir. Onların 84,0 faizi dövlət müəssisələrində çalışmışdır. İşçilərin orta aylıq əmək haqqı isə əvvəlki ilin on bir ayı ilə müqayisədə 33,8 faiz artaraq 231,0 manat olmuşdur.